AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

BAKI DÖVLƏT UNİVERSİTETİNİN

# ŞƏRQŞÜNASLIQ

JURNALI

---

JOURNAL OF

# ORIENTAL STUDIES

OF BAKU STATE UNIVERSITY

2/2026

**ISSN 3134-7231**

**Bakı – 2026**

*Azərbaycan Respublikası Ədliyyə Nazirliyində*
*21 oktyabr 2021-ci il tarixində qeydiyyatdan keçmişdir*
*(Mətbu nəşrlərin reyestrinə daxil edilmə nömrəsi 4361)*

*Baş redaktor:*
***akademik* Rafael Hüseynov**

## Redaksiya heyəti:

**BELLİNGERİ CAMPİERO**
Professor; Venesiya Ka Foskari Universiteti, İtaliya
**CAVADİ HƏSƏN**
Professor; Kaliforniya Universiteti, ABŞ
**CƏLİLOV OQTAY**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**ÇALİSOVA NATALİYA**
Filologiya elmləri doktoru, professor;
Rusiya Dövlət Humanitar Universiteti, Rusiya
**EKİCİ METİN**
Professor; Ege Universiteti, Türk Dünyası Araşdırmaları İnstitutu, Türkiyə
**FİLİPPOV ALEKSANDR**
Filologiya elmləri doktoru, professor;
Sankt-Peterburq Dövlət Universiteti, Rusiya
**XƏNDAN AYDAN**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**KAZIMOV MEHDİ**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**QARADAĞLI VÜQAR**
Filologiya elmləri doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**QASIMOVA AİDA**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**LO MBAYE**
Professor; Dyuk Universiteti, ABŞ
**MANSOOR ASMA**
Professor; İslamabad Beynəlxalq İslam Universiteti, Pakistan
**MƏMMƏDOVA ƏSMƏTXANIM**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**NİKOLAYEVA MARİYA**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Rusiya Elmlər Akademiyası, Rusiya
**OÇİLOV OZODCON**
Filologiya elmləri üzrə fəlsəfə doktoru;
Özbəkistan Dövlət Şərqşünaslıq Universiteti, Özbəkistan
**RƏSULOV ƏSGƏR**
Filologiya elmləri doktoru, professor;
Milli Arxiv İdarəsi, Azərbaycan
**RÜSTƏMOV RÜFƏT**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**SUFİYEV ŞODİMAXAMMAD**
Filologiya elmləri doktoru, professor;
Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan
**TOBİA STEFAN**
Professor; Strasburq Universiteti, Fransa

Bakı Dövlət Universitetinin **ŞƏRQŞÜNASLIQ** jurnalı/Journal of **ORIENTAL STUDIES** of Baku State University, № 2, 2026. – 168 səh. Bakı, BDU, 2026.

© Bakı Dövlət Universiteti, 2026

# OXUYACAQLARINIZ



## ƏDƏBİYYATŞÜNASLIQ

*ABDULLAYEVA Gülnarə*
**YƏHUDİ PİYUT ƏDƏBİYYATININ MƏRHƏLƏLƏRİ VƏ ƏNDƏLUSDA İBRİ DİLİNİN DÜNYƏVİ POEZİYA DİLİNƏ ÇEVRİLMƏSİ**
Stages of Jewish Ewish Piyuth Literature and the Transformation of Hebrew into a Secular Poetry Laguage in Andalus **11**

*ARASLI Nüşabə*
**ARİF VƏ NƏVAİ**
Arif and Navai **19**

*ƏLİYEVA Nərmin*
**HƏBİB SAHİRİN POEZİYASINDA MİLLİ AZADLIQ HƏRƏKATININ BƏDİİ-İDEOLOJİ TƏCƏSSÜMÜ**
The Artistic-Ideological Embodiment of the National Movement in Habib Sahir's poetry **30**

*HÜSEYNOV Rafael*
**BABA TAHIR IN HIS POETRY: DIVINE LOVE, WORDLY LOVE, AND HUMAN RIGHTS**
Baba Tahir poeziyasında ilahi məhəbbət, dünyəvi sevgi və insan haqları **37**

*XƏNDAN Aydan*
**TÜRK POEZİYASINDA PARNASÇI ŞAİRLƏR**
Parnassian Poets in Turkish Poetry **73**

*SADIQOVA Rəhilə*
**ƏMƏVİLƏR DÖVRÜ ƏDƏBİ-MƏDƏNİ MÜHİTİNDƏ QADINLARIN MÖVQEYİ**
The Status of Women in the Literary and Cultural Milieu of the Umayyad Period **79**

## DİLÇİLİK

*ƏHMƏDOVA Nailə*
**YAPON DİLİNDƏ FEİL VƏ FELİ SİFƏTİN QURULUŞUŞUNUN, AZƏRBAYCAN DİLİ İLƏ MÜQAYİSƏLİ TƏHLİLİ**
Comparative Analysis of the Structure of Verbs and Verbal Adjectives in Japanese and Azerbaijan **93**

*MƏMMƏDOVA Əsmətxanım*
**FARS DİLİNİN FONOTAKTİK SİSTEMİ VƏ FONETİK PROSESLƏRİN MORFOLOJİ FUNKSİONALLIĞI**
The Phonotactic System of the Persian Language and the Morphophonological Functionality of Phonetic Processe **100**

## TƏRCÜMƏ NƏZƏRİYYƏSİ VƏ ÇEVİRMƏLƏR

*HÜSEYNOV Rafael*
**ÖMƏR XƏYYAMIN NOVRUZ NAMƏSİ**
Omar Khayyam's Letter on Nowruz **115**

*NƏSİBOVA Aytən*
**ROBERT HİLLENBRAND. ŞAHNAMƏ VƏ PERSİYANIN İLLÜSTRASİYALI KİTABI**
Robert Hillenbrand. The Shahnama and the Persian Illustrated Book **129**

## TƏQDİMATLAR, RƏYLƏR, DƏYƏRLƏNDİRMƏLƏR

*ƏQİQ CƏFƏRZADƏ Gülnar*
**"QƏSİDE-Yİ ŞİNİYYƏ" VƏ YA "MERAT ÜS-SƏFA" ("Xaqani Şirvaninin ərəbcə qəsidələrinin izi ilə" monoqrafiyası əsasında)**
*Qaside-yi Shiniyya* or *Mir'at al-Safa* (Based on the Monograph "In the Footsteps of Khaqani Shirvani's Arabic Qasidas") **145**

*HÜSEYNOV Rafael*
**DİSSERTASİYALARA RƏYLƏR VERİLMƏSİ VƏ MÜZAKİRƏLƏRİN APARILMASI PRAKTİKASININ YÜKSƏK ELMİ TƏLƏBLƏRƏ UYĞUNLAŞDIRILMASI ZƏRURƏTİ**
The Need to Adapt the Practice of Reviewing and Discussing Dissertations to High Scientific Requirements **153**

**APA7 qaynaq göstərmə təlimatı** **164**

**Nəşrə dair tələblər** **166**

**Publication requirements** **167**

# ƏDƏBİYYATŞÜNASLIQ



**UOT 821.222.1**
**DOI** https://doi.org/10.30546/209805.2026.110.2.013

# HƏBİB SAHİRİN POEZİYASINDA MİLLİ AZADLIQ HƏRƏKATININ BƏDİİ-İDEOLOJİ TƏCƏSSÜMÜ

**NƏRMİN ƏLİYEVA***

## Xülasə

*"Həbib Sahirin yaradıcılığında milli azadlıq hərəkatının bədii-ideoloji təcəssümü" adlı məqalədə XX əsr Cənubi Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Həbib Sahirin yaradıcılığında milli azadlıq ideallarının bədii-estetik təzahürü araşdırılır. Burada istiqlal və mücadilə ruhu üstə köklənən poeziyasının əsas estetik qayə və məramı təhlil və münasibət hədəfi seçilir. Həmçinin, şairin sənətkarlıq baxımından seçilən poetik düşüncələrində hissi-emosional ovqat, duyğusal məqamlar barədə geniş təsəvvür yaradılır və onun şeirlərində milli azadlıq hərəkatının həm açıq ideya çağırışları, həm də simvolik-bədii obrazlar vasitəsilə əks olunması göstərilir.*

**Açar sözlər:** *Milli istiqlal, azadlıq mübarizəsi, poetik məramnamə, ədəbi manifest, poetik mücadilə, şeirdə səfərbərlik ruhu*

## Giriş

XX əsr Güney Azərbaycan üçün milli azadlıq ideyalarının təşəkkül tapdığı, ictimai-siyasi ziddiyyətlərin kəskinləşdiyi, milli hərəkatların və inqilabi proseslərin tüğyan etdiyi, istiqlal uğrunda aparılan mücadilələrin həm miqyas, həm də məzmun baxımından yeni mərhələyə qədəm qoyduğu mürəkkəb tarixi mərhələni əhatə edir. Bu mübarizələrdə xalqın yalnız sosial-iqtisadi, gün-güzəran qayğıları dilə gətirilmirdi, daha ciddi ictimai-siyasi taleyüklü məsələlər də irəli sürülürdü. Azadlıq və istiqlal amalını, milli-mənəvi dəyərləri özü üçün təməl prinsip kimi seçən bir quruluş və hakimiyyət uğrunda aparılan mücadilələrdə ölkənin idarəetmə strukturunda köklü islahatlar aparılmasını tələb edən, konstitusion hüquqlara əsaslanan dövlət idarəetmə üsulu kimi ciddi ictimai-siyasi təsisatların yaradılması qarşıya əsas məqsəd və məram kimi qoyulurdu.

Şübhəsiz ki, mərkəzləşdirilmiş şahlıq idarəetmə sisteminin hökm sürdüyü, siyasi basqı və ideoloji məhdudiyyətlərin dominant mövqe tutduğu bir şəraitdə, ictimai həyatın başqa sahələri kimi, ədəbi-mədəni həyatın inkişafı üçün də münbit bir şəraitin yaradılması, sağlam yaradıcı ab-havanın formalaşdırılması və bu sahədə nəzərəçarpacaq müsbət dəyişikliklərə ümid bəsləmək mümkün deyildi. Əksinə, mövcud quruluş və üsuli-idarə özü ədəbi düşüncənin estetik idealı olan azadlığın, milli dirçəlişin qarşısını istibdadla, həbs və zindan düşərgələri ilə sərbəst fikrin və düşüncənin qarşısını almaqla daha çox israrlı görünürdü.

* Filologiya elmləri üzrə fəlsəfə doktoru; Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi; narminaliyeva.phd29@gmail.com

## 1. Həbib Sahirin ədəbi mövqeyi və dünyagörüşü

XX əsr Güney Azərbaycan ədəbiyyatının tanınmış qələm sahiblərindən biri olan Həbib Sahir mürəkkəb ictimai-siyasi proseslərlə səciyyələnən bir tarixi mərhələdə yaşayıb-yaratmış, poetik irsi ilə azadlıq və istiqlal ideyalarının fərdi və ictimai şüurda möhkəmlənməsinə mühüm töhfələr vermişdir. Düşüncəsini insanların qəlbinə yansıdan müqtədir fikir sahiblərindən biri idi.

Həbib Sahirin yetişdiyi dövrün aparıcı ədəbi simaları haqqında irəli sürülən mülahizələrdə bir sənətkar kimi onun mübariz və döyüşkən poeziyasının ön sıralarda addımladığı diqqət önünə çəkilir: *"Cənubi Azərbaycanın vətənpərvər və maarifpərvər xadimləri millətlərinin və dillərinin, ədəbiyyatlarının inkar edildiyi ağır, dözülməz bir şəraitdə vahid bir cəbhədə birləşərək İran şovinizminin çirkin məqsədləri əleyhinə mübarizəyə qalxırlar. Məhəmmədhüseyn Şəhriyar, Həbib Sahir, Coşğun Katibi, Doktor Salamüllah Cavid, Doktor Cavad Heyət, Məhəmmədəli Fərzanə, Həsən Məcidzadə Savalan və başqa vətənpərvər ziyalılar kimi, Səhənd də"* (Qənbər qızı, 1984: 8). Bunlar döyüş və mübarizə meydanlarında mücadilə aparan əli qələmli müsəlləh əsgər, sənət fədailəri idi.

Səhəndin "Sazımın sözü" adlı "Seçilmiş əsərləri"nə yazdığı ön sözdə Ruqiyyə Qənbər qızı bu aramsız döyüşlərin önündə gedənlər sırasında Həbib Sahirin adını heç də təsadüfi olaraq çəkmirdi.

Həbib Sahir (1903-1987) poetik istedadı, orijinal duyum tərzi ilə seçilən XX əsr şeirinin aparıcı istiqamət və yaradıcılıq meyilləri barədə bitkin təsəvvürə malik bir qələm sahibi idi. O, ənənəvi şeir şəkilləri ilə yanaşı, həm də yeni modernist poeziyanın imkanlarından yararlanmağı qarşısına məqsəd qoyan, müasirliyə, avanqard poetik təmayüllərə meyil göstərən, sənətkar fərdiyyəti ilə Güney Azərbaycan poetik fikrinin inkişafında müstəsna xidmətləri olan sənətkar kimi tanınır.

Bir sənətkar kimi Həbib Sahirin yaradıcılığından, aparıcı mövzu və ideyalar aləmindən bəhs edən müəlliflər onun rəngarəng şeir gülşənində bir-birindən fərqli assosiativ fikirlərin və düşüncələrin yuva qurmasına diqqət yetirərək belə bir qənaətə gəlirlər ki: *"Həbib Sahir bədii əsərlərində xalqın taleyindən, real həyatdakı səhnələrdən, sadə əmək adamlarından – xalça toxuyan qızların acı taleyindən, əkinçilərin ağır işindən, xalqın qayğılarla dolu həyatından və ağır günlərindən ürək ağrısı ilə yazırdı. Lakin ana təbiətin əsrarəngiz gözəllikləri, al-əlvan mənzərələrini vəsf edən zaman şair, sosial məzmunlu şeirlərindən fərqli olaraq, daha nikbin və ümidli görünür. Cənubi Azərbaycanda 21 Azər hərəkatının qələbəsi və Azərbaycanın Milli Hökumətinin qurulması Sahirin yaradıcılığının ictimai-siyasi məzmununa ciddi təsir göstərmişdir"* (Məmmədli, 2021: 467).

Həbib Sahirin "Sürgün", "Basqın", "Zamanın sirri", "Qorxma!","Qovala düşmanları", "Həyatın yükü ağırdır, ağır", "Qəzəb", "Nə anladıq?", "İnqilab" və s. əsərlərində istiqlal hissi, milli oyanış ruhu, yüksək vətənpərvərlik oxucuda dərin ovqat yaradıb, milli mübarizə hissi aşılayıb.

Ustad şairin yaradıcılığı, demək olar ki, vətənpərvərlik ruhuna köklənmiş bir sənət nümunəsidir. Onun ənənəvi, bir qədər romantik çalarlarla süslənmiş şeirlərində vətən obrazının canlandırılması adi ifadələrlə nəzərə çatdırılır, belə bir özünüifadə manerasında patetikadan uzaq bir vətən obrazı "yurd" və "bizim yer" ilə əvəzlənir:

*Çıraq kimi lalələrdir odlanan,*
*Lalələrin üzərində qızıl qan.*

*Yer üzünün cənnətidir yurdumuz,*
*Unut göyü, bizim yerdə gəl dolan* (Sahir, 2005: 188).

Həbib Sahirin yaradıcılığında vətənpərvərlik hiss və duyğularından xəbər verən bu misralarla yanaşı, xalqın tarixi taleyi, düçar olduğu qayğı və əndişələr də təsirli boyalarla, özünəməxsus poetik ricətlərlə diqqət mərkəzinə çəkilir.

Şairin bütöv Azərbaycan görmək istəyi poetik nümunələrdə aparıcı mövzulardan birinə çevrilirdi. Onun üçün şimaldan bir bahar nəsiminin əsməsi əslində dinibir, dilibir qardaş-bacılarından uzun illər boyu ayrı düşən bir həsrətlinin nisgilli arzu və diləkləri kimi səslənir:

*Nədən nəsim şimaldan əsməz?*
*O taydan bizə qonaqlar gəlməz?*
*Qardaş qardaşın halını bilməz?*
*Bu nə ruzigar, nə zəmanədir*? (Sahir, 2005: 144)

Bədii suallar üzərində qurulan bu misralar şair qəlbinin həyəcanları, xalqın eşidilməyən könül çırpıntıları ilə vəhdət halına gətirilərək dövrə və zəmanəyə, bu ayrılığı yaşadanlara ünvanlanan poetik etiraz səsləri kimi eşidilməkdədir.

Həbib Sahirin azadlıq və istiqlal mövzusuna marağını, Güneydə baş verən milli azadlıq mübarizəsi ilə əlaqəsini şairin yaradıcılığına xüsusi tədqiqat həsr edən Vəfa Xanoğlan belə izah edir: *"60 illik ədəbi-bədii təcrübəyə malik ustad sənətkarın yaradıcılıq yolu doğma xalqının inqilabi hərəkatı ilə bağlı olmuşdur. "Azadəlik və hürriyyət şairi" kimi tanınan H. Sahir 83 illik mənalı həyatında Səttarxanın, Xiyabaninin başçılığı ilə gedən milli azadlıq hərəkatlarının və sonrakı hadisələrin şahidi, Pişəvərinin başçılığı ilə gedən 21 Azər hərəkatının iştirakçısı olmuşdur"* (Xanoğlan, 2022).

## 2. Ana dili və milli kimlik

Güneydə yaşayıb-yaradan bir çox sənətkarlar kimi, Həbib Sahirin poeziyasında da milli varlığın tərcümanı olan ana dili məsələsi önə çıxarılır, belə demək mümkünsə, ana dilinin azadlığı, bir ünsiyyət və kommunikativ vasitə kimi geniş dairələrdə işlənmə məramı xalqın bütövlüyü, sərhədlərinin bölünməzliyinin ədəbi-estetik idealı kimi özünün parlaq ifadəsini tapır.

Həbib Sahir yaradıcılığının əsas səciyyəvi xüsusiyyətlərindən biri onun ana dilinə xüsusi önəm verməsidir. Şairin bədii dünyagörüşü şifahi xalq ədəbiyyatı ilə klassik poeziya ənənələrinin vəhdəti əsasında formalaşmışdır. Xüsusilə Molla Pənah Vaqifin yaradıcılığı Həbib Sahirin poetik düşüncəsinə ciddi təsir göstərmişdir. Molla Pənah Vaqif Azərbaycan poeziyasında xalq dilinə əsaslanan realist poetik xəttin banisi kimi çıxış edirsə, Həbib Sahir bu xətti XX əsr Güney Azərbaycan ədəbiyyatında milli şüur və ideoloji müqavimət kontekstində davam etdirmişdir. O, ana dilini yalnız ünsiyyət vasitəsi kimi deyil, milli kimliyin, mənəvi varlığın əsas göstəricisi kimi dəyərləndirmişdir. Ana dili mövqeyini ən açıq şəkildə ifadə edən şeirlərinin birində ustad şair belə deyir:

*Türkü deyib, farsi yazmaz,*
*Xalq yolundan ayrı düşməz.*

*Ana dili candan əziz,*
*Onu satan elə dəyməz.*

Şairə görə, xalqın dilində danışıb başqa dildə yazmaq milli kimliyə xəyanət kimi qiymətləndirilir.

Ustad şairin şeirlərində ana dilinə olan sevgi çox vaxt həsrət və nisgil notları ilə müşayiət olunur. Onun poetik düşüncəsində ana dili ana südü qədər təmiz, müqəddəs və toxunulmazdır. Şair ana dilini "beşikdən gələn ilk səs", "ananın laylası" kimi poetik obrazlarla ifadə edərək dilin insanın ruhuna doğuşdan hopduğunu göstərir. Həbib Sahirin ana dili mövzusunda yazdığı şeirlər eyni zamanda sosial-siyasi etirazın bədii ifadəsidir.

Bu baxımdan şairin "Tərəhhata inanma!" şeirində dilin hər bir xalqın etnik-mədəni sisteminin ən zəruri komponenti olması ucadan səsləndirilir, dilin ən dəruni hiss və duyğuları ifadə etməkdə sirr və möcüzələr dolu bir canlı varlıq olması fikri önə çıxarılır. Əlbəttə, şeirdə doğma ana dilinin yad təsirlərdən qorunması, dildən məddahlıq kimi ucuz bir vasitə kimi yararlanmaq cəhdləri də ciddi tənqid olunur:

*Ana güldür, bir gün solur,*
*Ana dili şirin olur.*
*Bizim türki şirin dildir,*
*Xoş sədalı, zəngin dildir.*
*Dil – günəşdir, işıq saçar,*
*Səadətə qapı açar.*
*Yadın dili boyunduruq!*
*Bir keçiddir, buruq-buruq* (Sahir, 2005: 79).

Şeirdə öz dilinə yad baxan hakim zümrənin üzvləri olan yüksək çinli məmurlar – "senatorlar, tacir və tüccarlar, şaha mədhiyyələr yazan məddah şairlər" ciddi tənqidə tuş gəlir:

*Qoy yadlaşsın senatorlar,*
*Xalqı soyan tacir, tüccar,*
*Yaltaq şair yolun azsın,*
*Mədhiyyələr şaha yazsın* (Sahir, 2005: 79).

Fikir verin, ana dilinin saflığının, müqəddəsliyinin qorunub saxlanılması üçün şairin "qızım" deyə müraciət etdiyi şəxsə üz tutaraq müraciət etməsi heç də təsadüfi hesab olunmamalıdır. Çünki burada dildən də əvvəl ana sözü gəlir, ana südü ilə dil uşağa – gələcəyin dil qoruyucusunun ruhuna və mənəviyyatına hopdurulur. Şeirdə "qızım" xitabı konkret bir ictimai-tarixi şəraitin mənzərəsi nəzərə alınmaqla, həm də bir "SOS" – həyəcan təbili çalmaq, xəbərdarlıq anlamına gəlir:

*Gəl, atəşə, qızım, yanma,*
*Tərəhhata çox inanma!*
*Zənci danmaz öz dilini,*
*Hindi sevər öz elini.*

*Kimsə yolun çaşıb azmaz,*
*Türki deyib, farsi yazmaz* (Qənbər qızı, 1984: 8).

Belə bir poetik təqdimat və yanaşma ana dili ilə bağlı məşhur deyim və fikirlərlə üst-üstə düşür: "*Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi mənziləsindədir. Ananın südü bədənin mayəsi olduğu kimi, ananın dili də ruhun qidasıdır, hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir. Bu, Allah-təalanın gözəl nemətlərindən birisidir, onu əziz və möhtərəm tutmaq hər kəsə borcdur*" (Qənbər qızı, 1984: 292).

Göründüyü kimi, Həbib Sahir yaradıcılığında ana dilini xalqın varlığının, tarixi yaddaşının və gələcəyinin təminatçısı kimi təqdim edir. Onun şeirlərində ana dili həm sevgi və həsrət obyekti, həm də etiraz və mübarizə rəmzidir. Bu baxımdan Həbib Sahirin poeziyası Güney Azərbaycan ədəbiyyatında ana dili ideyasının formalaşmasında mühüm rol oynamışdır.

## Nəticə

Həbib Sahir azadlıq şairi kimi yaddaşlara köçüb. Onun istiqlal çağırışlı poeziya nümunələri o taylı-bu taylı xalqımız üçün son dərəcə mühüm və əhəmiyyətlidir. Heç bir şübhə yoxdur ki, azadlıq hissimizin güclənməsində, zəfərə gedən yolda bizi saran inam hissimizdə Həbib Sahir şeirinin də gücü əhəmiyyətli rol oynayıb. O, bütün yaradıcılığı boyu həyata, insanlara, bütün həqiqətlərə güzgü tutdu, özünün ictimai-milli xarakterini müəyyən etdi, həmçinin, fəaliyyətində, ədəbi yaradıcılığında dövlət ənənələrinə, dövlətçilik proseslərinə geniş yer verdi, ictimai prosesləri qabarıq ehtiva etdi. Ustad şairin yaradıcılığı bu mənada özünün milli ruhu, coşqun hiss və duyğuları ilə istiqlal düşüncəsinin formalaşmasına öz töhfəsini verən poetik irs kimi bu gün də öz mübariz əhval-ruhiyyəsi ilə xalqa təmənnasız xidmət etməkdədir.

## QAYNAQLAR:

1. Xanoğlan, V. (2022, 17 mart). *Həbib Sahir yaradıcılığı və Türkiyə ədəbi mühiti, şəxsiyyəti və poeziyası haqqında düşüncələr.*
2. Köçərli, F. (1963). *Ana dili.* Bakı.
3. Qənbər qızı, Ruqiyyə. (1984). *Bulud Qaraçorlu Səhənd və onun poeziyası*. Bakı: Yazıçı
4. Məmmədli, P. (2021). Həbib Sahir. *Azərbaycan ədəbiyyatı tarixi.* Bakı: Elm.
5. Sahir, H. (2005). *Seçilmiş əsərləri*. Tərtib edəni: Vəfa Əliyev. Bakı: Lider nəşriyyatı.
   https://edebiyyatqazeti.az/news/poeziya/8644-hebib-sahir-yaradiciligi-ve-turkiye-edebi-muhiti-sexsiyyeti-ve-poeziyasi-haqqinda-dusunceler

## *The Artistic-Idelogical Embodiment of the National Movement in Habib Sahir's Poetry*

**NARMIN ALIYEVA**[**]

### *Summary*

*The article entitled "The Artistic-Ideological Embodiment of National Movement In Habib Sahir's Poetry" examines the artistic and aesthetic expression of the ideals of national independence in the works of Habir Sahir – one of the prominent representatives of 20th century South Azerbaijani literature.*

*The study focuses on the fundamental aesthetic orientation and ideological purpose of his poetry, which is deeply rooted in the spirit of independence and resistance. Furthermore, the article provides a comprehensive perspective on the poet's artistic thought, emphasizing the emotional intensity and expressive sensitivity that characterize his poetic worldview. It demonstrates how the national liberation movement is reflected in Sahir's poetry both through explicit ideological appeals and through symbolic and artistic imagery.*

***Keywords:*** *National independence, liberation struggle, poetic purposefulness, literary manifesto, poetic resistance, spirit of mobilization in poetry.*

## *Художественно-идеологическое воплощение национально-освободительного движения в творчестве Хабиба Сахира*

**НАРМИН АЛИЕВА**[***]

### *Резюме*

*В статье под названием «Художественно-идеологическое воплощение национально-освободительного движения в творчестве Хабиба Сахира» исследуется художественно-эстетическое выражение идей национальной свободы в творчестве одного из выдающихся представителей южно-азербайджанской литературы XX века – Хабиба Сахира.*

*В работе основное внимание уделяется анализу и интерпретации эстетической ценности и идейного содержания поэзии, проникнутой духом независимости и борьбы. Также формируется целостное представление о поэтическом размышлении поэта с точки зрения художественного мастерства, его эмоционального настроя и чувственных аспектов и о прямых идейных*

[**] Doctor of Philosophy in Philology; National Museum of Azerbaijani Literature named after Nizami Ganjavi; narminaliyeva.phd29@gmail.com

[***] Кандидат филологических наук; Национальный Музей Азербайджанской Литературы имени Низами Гянджави; narminaliyeva.phd29@gmail.com

*призывах к национально-освободительному движению в его стихах посредством символических художественных образов.*

***Ключевые слова:*** *Национальная независимость, освободительная борьба, поэтическая целеустремлённость, литературный манифест, поэтическая борьба, дух мобилизации в поэзии.*

**Redaksiyaya daxil olma tarixi: 22.12.2025**
**Çapa qəbul tarixi: 03.02.2026**
**Çap olunma tarixi: 10.03.2026**